## *PEDAQOGİKA*

# Azərbaycan dilinin fonetik, leksik-semantik imkanlarından istifadə məsələsi və Heydər Əliyev nitqi

**Sevil Mirhəsən qızı İsayeva**
*Mingəçevi Dövlət Universitetinin müəllimi*
**E-mail:** sevil-hesenova57@mail.ru

**Rəyçilər:** p.ü.f.d. İ.B. Əmrəliyeva,
p.ü.f.d. A.X. Hacıyev

**Açar sözlər:** öyrənmə, dilin fonetik, leksik imkanlarından istifadə, nitqin zənginləşdirilməsi
**Ключевые слова:** обучение, использование фонетических, лексических возможностей языка, обогащение речи
**Key words:** learning, use of phonetic and lexical possibilities of languare, speech enrichment

Ümumiyyətlə, hər bir xalq öz mentalitetinə, dövlət quruluşuna, tutduğu mövqeyə və digər amillərə uyğun olaraq, ideologiyasında vətənpərvərlik ruhu təcəssüm etdirir. Elə bir dövlət olmaz ki, az və ya çox dərəcədə bu mühüm ideologiyanı həyata keçirməsin. Bu ruh ölkənin bütün vətəndaşlarına, tutduğu vəzifədən, sosial vəziyyətdən, dinindən, dilindən asılı olmayaraq, yüksək keyfiyyətlə aşılanır. Bu amil lap körpə yaşlarından hər bir vətəndaşa çox vacib şərt kimi öyrədilməlidir. Tarixi müşahidələr və təcrübələr sübut etmişdir ki, hər hansı ölkədə, cəmiyyətdə, müəyyən qurumlarda bu keyfiyyət yüksək tələbkarlıqla öz əksini taparsa, orada mədəniyyətin inkişafı yüksək səviyyədə olur (1). Bu baxımdan millətimizi, dövlətimizi hər yerdə təmsil etmək üçün, ilk olaraq doğma dilimizi sevməli, onun saflığını qorumalı, dilimizin lüğət tərkibini daim zənginləşdirməliyik.

Məhz dövlətin məktəblər qarşısında qoyduğu vəzifələrdən biri də gənc nəslin doğma ana dilimizin ədəbi dili səviyyəsində nitqini düzgün qura bilməsi, fikir və düşüncələrini başqaları ilə bölüşərkən milli kimliyimizi diqqətdə saxlaması, dil baxımından fonetika, leksika, qrammatikanın üslubi imkanlarından lazımi səviyyədə istifadə bacarığına malik olması, ölkə miqyaslı qlobal məsələlərin həlli yollarını araşdırmağa can atan şəxsiyyət ruhunda tərbiyəsidir.

Azərbaycanın ilk peşəkar ədəbiyyatşünas tənqidçisi, Azərbaycan dilinin saflığı və inkişafı uğrunda mübariz Firidun bəy Köçərli yazmışdır: “Hər millətin özünəməxsus ana dili var ki, onun məxsusi malıdır. Ana dili millətin mənəvi diriliyidir. Həyatımızın mayəsi, mənziləsidir. Ananın südü bədənin mayəsi olduğu kimi, ananın dili də ruhun qidasıdır. Hər kəs öz anasını və vətənini sevdiyi kimi, ana dilini də sevir” (2).

Bəli, məktəbdə ana dili təlimi yüksək nəzəri səviyyədə təşkil olunmalıdır. Bu yüksək səviyyə, ilk növbədə, dilçiliyin dil haqqında elmi müddəalarına uyğunluqla müəyyən edilir. Dil üzrə verilmiş məlumatların şüurlu mənimsənilməsi mühüm şərtdir. Məlumdur ki, dil insanlar arasında ən mühüm ünsiyyət vasitəsidir. Dilin köməyi ilə insana xas olan ən yüksək təfəkkür yaranır və insan bu təfəkkürlə varlığı dərk edir. İnsan hər şeyi öyrənməkdə və tərbiyə almaqda başlıca olaraq sözdən istifadə etdiyi üçün, dil özünü bütün təlim və tərbiyə işlərinin mühüm vasitəsi kimi göstərir. Bu və ya digər fənn üzrə bilikləri o vaxt mənimsəmiş hesab etmək olar

ki, şagirdlər doğma ana dili üzrə bilik, bacarıq, vərdişlərə yiyələnmiş olsunlar və bu bilikləri düzgün, aydın, anlaşılan şəkildə ifadə etməyi bacarsınlar. Belə ki, Azərbaycan dili təliminin əsas didaktik vəzifəsi şagird və tələbələrin şifahi və yazılı nitq vərdişlərini inkişaf etdirməkdir. Buna görə də ilk növbədə, fonetika, leksikologiya, söz yaradıcılığı, morfologiya, sintaksisdən proqrama daxil edilən və öyrədilən dil qaydalarının nitq inkişafı üçün praktik əhəmiyyəti nəzərə alınmalı, mətn üzrə işlərdə əsas məqsəddən uzaqlaşmamaqla mövzunun tədrisinə ayrılan vaxtdan səmərəli istifadə edilməlidir. Müəllim unutmamalıdır ki, hər hansı konkret mövzunu mənimsətmək ümumi işdir və bu ümumi iş nəzdində əsas məqsəd öyrənənlərin lüğət ehtiyatını, ədəbi tələffüz, orfoqrafik yazı, cümlə qurmaq və s. vərdişlərindən birini və ya bir neçəsini inkişaf etdirməlidir. Dil üzrə qazanılan nitq vərdişlərinin möhkəmləndirilməsi isə şagirdlərin düşünmə tərzinin spesifikası ilə sıx bağlıdır. Bu işin yüksək səviyyədə qurulması, vərdişə sahiblənmə xüsusiyyətlərinin dayanıqlığı birbaş xarakterdən, onu formalaşdıracaq psixoloji dəstəkdən asılıdır. Ümumiyyətlə, hər bir azərbaycanlı – müəllim, həkim, nazir, şəhərli, kəndli, nitq mədəniyyətinə dərindən yiyələnməli, ana dilimizdə düzgün, gözəl danışmağa, savadlı, dəqiq, aydın yazmağa borcludur.

İntonasiya baxımından düzgün qurulmuş nitq diqqəti daim səfərbər edir, nəzərdə tutulmuş məqsədin, ideyanın dinləyiciyə asan çatmasına şərait yaradır. Bütün hərəkətlər kimi nitq insan təfəkkürünün məhsulu kimi doğulur, müəyyən istiqamətə yönəlir və nəhayət, sona yetir. İntonasiya tələffüzün dörd elementini, yəni fasilə, vurğu, melodiya və tempi özündə birləşdirir. Vurğu, fasilə, temp, melodiya nitqin xarici komponentləri kimi, eyni zamanda, nitqin səslənməsini yaradır. Belə ki, bu ünsürlər danışıq və oxuda ifadəliliyin yaranmasına, nitqin anlaşıqlı olmasına xidmət edir.

Yazılı ədəbi dilimizin ilk nümunələri bədii əsərlərlə həyata vəsiqə almışdır. Yazılı nitq bilavasitə, əlifbamızın meydana gəlməsindən sonrakı dövrə aiddir, yazı mədəniyyəti ilə bağlıdır. Məlumdur ki, yazılı ədəbi dil, əsasən, orfoqrafik normalar əsasında səlisləşir, rəvanlaşır. Şifahi ədəbi dil isə orfoepik normalarla tənzimlənir. Ədəbi tələffüzdə özünü göstərən bir sıra fonetik dəyişmələr: bəzi alınma sözlərdə saitlərin uzun tələffüzü (məmur, elan, əla və s.), ədəbi dil baxımından məqbul sayılan səsdəyişmələri (vətəndən-vətənnən, şənbə-şəmbə, başlayır-başlıyır və s.), səsartımı (ailə-ayilə, şair-şayir, şer-şeyir və s.), tələffüzdə ağırlıq yaradan fonemin ixtisar olunması (səsdüşümü) (dost köməyi – dos köməyi, güzəşt etmək–güzəş etmək və s.), dilimizə məxsus sözlərdə iki saitin, iki və üç samitin söz daxilində yanaşı işlənə bilməməsi, çoxhecalı sözlərin sonunda cingiltili samitlərin karlaşaraq tələffüz olunması (uşaq bağçası-uşax baxçası, kənd həkimi-kənt həkimi və s.), kar samitlərin cingiltiləşərək deyilməsi (hətta-hətda, dəftər-dəfdər, bitki-bitgi, təşəkkür-təşəkgür və s.), ahəng qanunu, vurğu və s. fonetik faktorlar nitqdə ahəngdarlığı yaradır. İntonasiya, fasilə, vurğu, temp, tembr və s. də nitqdə ahəngdarlığı, ritm və bölgüləri yaradan vasitələrdir. Bunlar nitqin təsirini artırır, onu daha ifadəli, emosional edir. Belə nitq musiqi kimi səslənir.

Dahi Nizami Gəncəviyə görə, dünyada ən çətin işləri "hikmət adamları", söz ustaları, natiqlər yerinə yetirə bilirlər.

*Sözün qanadları var, quş kimi incə-incə,*
*Dünyada söz olmasa, nəyə gərək düşüncə.*

Dilin inkişaf dərəcəsi onun qrammatik quruluşu ilə deyil, leksik tərkibinin zənginliyi ilə ölçülür. Sözü çox olan xalqın(dilin) təfəkkürü zəngin olar. Sözsüz dilin nə leksik-semantik, nə də sintaktik-qrammatiksəciyyəsi olardı. Cümlədə əsas məna yükü sözün üzərinə düşür (3, s.

230). Dilimizi ulu öndərin nitqi ilə əlaqələndirsək, deyə bilərik ki, Heydər Əliyev Azərbaycan dilini çox sevirdi və bu dildə danışmağı ilə fəxr edirdi. O, xalqla onun öz dilində danışırdı. İnsanlar onun nitqinin gözəlliyinə, zənginliyinə, axıcılığına, səlisliyinə, məntiqliyinə heyran qalır, onu dinləməkdən məmnun olurdular. Ulu öndərin nitqi həqiqi mənada yaradıcı fəaliyyət idi. Onun nitqində cümlələrin quruluşu, sözlərin, ifadələrin işlədilməsində orijinallıq, özünəməxsusluq daima nəzərə çarpardı.

Ulu öndər bir natiq kimi zəngin söz ehtiyatına malik idi. Danışarkən duruxmaz, söz axtarmaq üçün fikirləşməzdi. O, nitqində söz və ifadələrin təkrarına mümkün qədər yol verməzdi. Düzgün seçilən, yerində işlədilən ifadəlilik vasitələri – leksik və frazeoloji sinonimlər, antonimlər, nidalar, müraciətlər, ritorik suallar və s. onun nitqini təsirli edir, estetik cəhətdən gözəlləşdirirdi. “Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini – Azərbaycan dilini, dövlət dilini mükəmməl bilməlidir” deyən Heydər Əliyevə bu dil əziz idi, müqəddəs idi. O bu dilə mükəmməl yiyələnmişdi. Bu dildə, demək olar ki, hamıdan yaxşı danışırdı. Əlbəttə, dahi Heydər Əiyevin nitqi bizim üçün örnək olmalıdır. Belə gözəl nitqə sahib olmaq üçün dilimizin fonetik, leksik və qrammmatk imkanlarından bəhrələnməyi bacarmalıyıq.

Azərbaycan dilinin leksik imkanlarını nəzərə alaraq danışan şəxs fikir və hisslərini daha dəqiq ifadə etmək üçün sinonim cərgəyə məxsus lazımi sözü yerli-yerində elə işlədir ki, bu, nitqdə dəqiqliyi yaradır, eyni zamanda ahəngdarlıq təmin edir. Bu baxımdan Ulu öndər Heydər Əliyevin nitqi təsirli və zəngin olmuşdur. Onun dilində *həyəcan-narahatlıq, arzu-istək, kömək-qayğı-mənəvi dayaq, bilikli-savadlı, hörmət-ehtiram-minnətdarlıq, fikir-duyğu-istək* və s. kimi ifadələrə, sinonimlərə tez-tez rast gəlmək mümkündür ki, bu da onun dilinin leksik cəhətdən zəngin olduğunu göstərir. Leksik vasitələrdən, o cümlədən sinonimlərdən istifadə şifahi nitqə bir növ yaradıcı xarakter verir.

Dilimizin leksikası sinonimlik baxımından olduqca zəngindir: qoçaq, igid, cəsur, qorxmaz, qəhrəman; güc, qüvvə, taqət; el, vətən, diyar, yurd, oba, ocaq; keçid, aşırım; dünya, aləm, cahan, kainat; üz, sifət, bəniz, camal, surət; xoşbəxtlik, səadət; iftixar, qürur; söz, deyim; gələcək, istiq-bal; ayrılıq, hicran; incə, zərif, nəfis, lətif; tək, tənha; od, atəş; səs, səda, avaz və s.

Nümunələrdən göründüyü kimi, sinonim cərgələri əmələ gətirən komponentlərin hər biri öz semantik dairəsinə görə digərlərindən fərqləndiyi üçün mənaca tam üst-üstə düşmür. Onların hər biri həmin cərgədəki əsas sözü müəyyən cəhətdən aydınlaşdırır, dəqiqləşdirir.

Həmçinin dilimizin leksik imkanlarından bəhs edərkən danışan şəxs bəhs etdiyi əşya və hadisələrin kəmiyyət, keyfiyyət, zaman və məkan məzmunlarının əks və ziddiyyətli cəhətlərini ifadə edərkən daha uyarlı və təsirli antonim sözlərdən istifadə etməyi bacarmalıdır. Bu məqsədlə antonimlər məntiqi vurğu ilə, nəzərə çarpacaq bir tərzdə tələffüz olunmalıdır.

Frazeoloji birləşmələr də leksikanın üslubi imkanlarına daxildir. Nitqin emosionallığını, obrazlılıq və ifadəliliyini yaradan ən təsirli vasitələrdən biri frazeoloji birləşmələrdir. Məsələn, *ağzına dil atmaq, canını boğazına yığmaq, kirpiyi ilə od götürmək, Çin səddi qoymaq, qayğı göstərmək, milləti satmaq, aranı qarışdırmaq, danışıqları pozmaq, quşu gözündən vurmaq, quşu quş ilə tutmaq, toydan sonra nağara, qabağına kötük itələmək* və s.

Ulu öndərimiz Heydər Əliyevin nitqi bu baxımdan nümunəvi idi. “Ümumiyyətlə, Heydər Əliyevin nitqlərində, çıxışlarında, məruzələrində çox az cümlə tapmaq olar ki, orada frazeoloji vahidlər işlənməmiş olsun” .

Ünsiyyət prosesində Azərbaycan dilinin leksik imkanlarından istifadə zamanı xalq zəkasının, müdrikliyinin ümumiləşdirilmiş bədii ifadəsi olan atalar sözü, zərbi-məsəl və aforizmlərdən geniş istifadə olunur.

*Məsələn, uma-uma döndüm muma; asta vur, usta vur; kor-kor, gör-gör; qız yükü, duz yü-*

*kü; bala dadı bal dadı; pulu pul, minnəti minnət* və s. Bu qəbildən olan atalar sözü və məsəllər nitqə səslənmə baxımından xüsusi effekt verir, söylənilən fikri konkretləşdirir, onu daha mənalı edir.

Böyük Azərbaycan şairi Məhəmməd Füzuli də sözün fəziləti və qüdrəti haqqında danışmış, onu insan ağlının, zəkasının gövhəri hesab etmişdir (3, s. 242).

Sonda qeyd edilməlidir ki, hər bir millətin nümayəndəsi yazılı və şifahi nitq zamanı doğma ana dilinin fonetik, leksik və qrammatik imkanlarından düzgün istifadə etməyi bacarmalıdır.

**Məqalənin aktuallığı.** Tədris prosesində tələbələrin aktiv iştirakını təmin edir, passivliyi aradan qaldırır, nitqi zənginləşdirir, çevikliyi aktuallaşdırır.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik qrammatikanın imkanlarından istifadə etməklə auditoriyanın daha effektiv idarə edilərək tələbələrin diqqətini dərsə cəlb etmək imkanının yaradılmasıdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə qrammatikanın imkanlarından düzgün istifadə tələbə və şagirdlərin orfoqrafik və orfoepik vərdişlərə yiyələnməsi üçün praktik əhəmiyyətlidir.

## Ədəbiyyat

1. Heydər Əliyev. Dünya Azərbaycanlıları konqresinin I qurultayındakı çıxışından (24 dekabr 2010-cu il).
2. Köçərli F. Ana dili. Seçilmiş əsərləri. B., 1963, səh. 292.
3. A. Babayev. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı: Elm və təhsil, 2011.
4. Ur P.Acourse inEngish LanguageTeaching Cambridge University Press, 2012, 325 p.

**С.М. Исаева**

## Проблема использования фонетических, лексико-семантических возможностей азербайджанского языка и речи Гейдара Алиева

### Резюме

В статье рассматривается способность подрастающего поколения использовать фонетические, лексические и семантические возможности азербайджанского языка. В этой связи молодым людям рекомендуется извлечь пользу выступления великого лидера Гейдара Алиева.

**S.M. Isaeva**

## The issue of using the phonetic, lexical-semantic possibilities of the Azerbaijani language and Heydar Aliyev's speech

### Summary

The article discusses the ability of the younger generation to use thephonetic, lexical and semantic capabilities. In this legard, young peaple are advised to benefid from the speech of the qreat leader Heydar Aliyev.

**Redaksiyaya daxil olub:** 16.11.2021.